1_Layout 1 13.07.2026 16:11 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*
**İlham ƏLİYEV**

# ƏSGƏR

№ 13 (725)

15 iyul
2026-cı il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

# AZƏRBAYCAN - REGİONUN SABİTLİK VƏ ƏMƏKDAŞLIQ ÜNVANI

## Prezident İlham Əliyevin yürütdüyü xarici siyasət Cənubi Qafqazda sülhün və təhlükəsizliyin əsas təminatçısıdır

**"Azərbaycan" qəzetinin müxbiri İsmayıl Qocayevin müəllifi olduğu "Azərbaycan - regionun sabitlik və əməkdaşlıq ünvanı" başlıqlı məqalənin ictimai aktuallığını nəzərə alaraq oxucularımıza təqdim edirik.**

Dünya öz tarixinin mürəkkəb, proqnozlaşdırılması çətin və münaqişələrlə zəngin olan dövrlərindən birini yaşayır. Hazırda qlobal təhlükəsizliyin sarsılması, regional qarşıdurmaların coğrafiyasının genişlənməsi və böyük güclər arasında kəskinləşən rəqabət dünyanı qeyri-müəyyənlik dalğasına qərq edib.

Son günlər Yaxın Şərqdə münaqişə tərəfləri arasında qarşıdurmanın yenidən şiddətlənməsi, Rusiya-Ukrayna cəbhəsində illərdir davam edən müharibə qlobal müstəvidə gərginliyi pik nöqtəyə çatdırıb. Azərbaycanın yerləşdiyi Cənubi Qafqaz regionuna yaxın bir çox coğrafiyada, həm şimal, həm də cənub qonşuluğunda ciddi münaqişə ocaqlarının olması artıq öyrəşdiyimiz reallıqdır. Amma uzunmüddətli savaşlar təkcə siyasi böhranla məhdudlaşmır, həm də qlobal enerji və nəqliyyat dəhlizləri, beynəlxalq yük daşımaları üçün misli görünməmiş humanitar və iqtisadi problemlər yaradır.

Ənənəvi təchizat zəncirlərinin qırıldığı, qitələrarası keçidlərin təhlükə altına düşdüyü bu cür mürəkkəb beynəlxalq şəraitdə Azərbaycanda qorunan daxili sabitlik, sosial-iqtisadi dayanıqlılıq və yüksək ictimai təhlükəsizlik mühiti qlobal miqyasda xüsusi diqqət çəkir və yüksək qiymətləndirilir. Azərbaycan bu xaosun ortasında öz təhlükəsizliyini təmin edən və dünya üçün etibarlı tərəfdaş rolunu qoruyan unikal sabitlik adası kimi çıxış edir.

Azərbaycanın daxili sabitliyi və regional əməkdaşlıq təşəbbüsləri dövlətimizin başçısı tərəfindən mükəmməl şəkildə formalaşdırılmış və zamanın sınağından uğurla çıxmış balanslaşdırılmış xarici siyasət kursunun birbaşa nəticəsidir. Prezident İlham Əliyevin siyasi fəaliyyətinin əsas xüsusiyyətlərindən biri qəbul edilən qərarların uzunmüddətli strateji hədəflərə hesablanmasıdır. Dövlət idarəçiliyindəki praqmatik yanaşma, milli maraqların ön planda tutulması və sürətlə dəyişən beynəlxalq reallıqlara çevik uyğunlaşma siyasəti Azərbaycanın beynəlxalq nüfuzunu daha da artırıb.

Müasir dünyada əsas çatışmazlıqlardan biri dialoq platformalarının azlığıdır. Lakin Azərbaycanın qlobal və regional güclərin hər biri ilə açıq, qarşılıqlı hörmətə



əsaslanan diplomatik əlaqələrə və dialoq imkanlarına malik olması rəsmi Bakıya geniş manevr imkanları verir. Vurğulanan məqamlar ölkəmizi qlobal güc mərkəzlərinin əməkdaşlıq etdiyi unikal məkana çevirir. Bu yanaşma Azərbaycanın xarici siyasətinin mühüm və strateji uğuru olmaqla yanaşı, dövlətimizi beynəlxalq arenada söz sahibi edir, onun etibarlı tərəfdaş statusunu gücləndirir.

Azərbaycan rəhbərliyinin mütəmadi vurğuladığı kimi, ölkəmiz geosiyasi rəqabət və qarşıdurma meydanı yox, sülh və əməkdaşlıq məkanıdır. Dövlətimizin təşəbbüsü ilə reallaşdırılan irimiqyaslı qlobal və regional layihələr ölkələri birləşdirir, qarşılıqlı iqtisadi asılılığı artırır və regionda davamlı sabitliyin təmin olunmasına xidmət edir. Yəni Azərbaycanın sabitlik və əməkdaşlıq məkanı olması bu günün hadisəsi deyil. Ölkəmiz hələ uzun zaman öncədən bu strateji kursu özünün dövlət fəlsəfəsi seçib. Zaman dövlətimizin başçısının uzaqgörən strategiyasının nə qədər doğru olduğunu sübuta yetirdi.

Azərbaycanın formalaşdırdığı təhlükəsiz bağlantı mühiti və regional sabitlik dünya nəhənglərinin də diqqət mərkəzindədir. Qlobal aktorlar Azərbaycanı regional əməkdaşlığın ən mühüm ölkəsi kimi görürlər. Hazırda ABŞ, Avropa İttifaqı və Çin ölkəmizlə münasibətləri dərinləşdirməyə xüsusi maraq göstərir. Avropa İttifaqı üçün Azərbaycan etibarlı alternativ enerji mənbəyi olmaqla paralel, həm də Mərkəzi Asiyaya açılan ən təhlükəsiz strateji qapıdır. Azərbaycan ABŞ üçün Avrasiyanın nəqliyyat və enerji xəritəsində balans yaradan, regional təhlükəsizliyin təminatçısı olan əvəzedilməz strateji tərəfdaşdır. O cümlədən Çin üçün də ölkəmiz qlobal "Bir kəmər, bir yol" layihəsinin ən mühüm və risklərdən uzaq coğrafi məkanıdır. Azərbaycan Cənubi Qafqaz bölgəsində Şərqlə Qərbi qarşılıqlı maraqlar müstəvisində birləşdirən və qlobal ticarət üçün riskləri minimuma endirən yeganə təhlükəsiz ölkədir.

Böyük güclərin Azərbaycana marağı bəyanatlarla məhdudlaşmır, konkret layihələrdə özünü büruzə verir. Məsələn, Avropa İttifaqı ilə imzalanmış enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu çərçivəsində Azərbaycanın "qoca qitə"nin qaz təchizatındakı payı ilbəil artmaqdadır. "Yaşıl enerji" dəhlizi bu tərəfdaşlığı yeni müstəviyə daşıyır. Eyni zamanda rəsmi Bakı Pekinin strateji maraqları çərçivəsində Çin-Mərkəzi Asiya-Avropa marşrutunun gömrük və logistika prosedurlarını rəqəmsallaşdıran yeganə etibarlı tərəfdaş kimi çıxış edir. ABŞ isə regionda enerji marşrutlarının diversifikasiyası və terrorizmə qarşı mübarizədə Azərbaycanı Cənubi Qafqazın əvəzedilməz dayaq nöqtəsi olaraq qəbul edir.

Ənənəvi şimal və cənub nəqliyyat dəhlizlərinin funksionallığını itirməsi Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun (Orta dəhliz) önəmini artırıb. Azərbaycan Orta dəhlizin əsas hərəkətverici qüvvəsidir. Ölkəmizin uzun illər öncədən reallaşdırdığı infrastruktur layihələri, Bakı-Tbilisi-Qars dəmir yolu, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, modernləşdirilmiş magistral yollar və hava limanları infrastrukturu bu gün qlobal ticarətin xilaskarına çevrilib. "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat marşrutlarının kəsişməsində yerləşən Azərbaycan Çindən çıxan yüklərin Avropaya qısa, ucuz və ən əsası təhlükəsiz şəkildə çatdırılmasını təmin edir. Qlobal təchizat zəncirinin Azərbaycandan asılı vəziyyətə gəlməsi ölkəmizin beynəlxalq təhlükəsizlik statusunu daha da gücləndirir.

Azərbaycan bütövlükdə Avrasiya məkanının mühüm siyasi-iqtisadi aktorlarından biridir. Cənubi Qafqazda yaranan yeni regional reallıqlar fonunda Azərbaycanın mövqeyi daha güclüdür. Ölkəmiz regional əməkdaşlıq gündəliyini müəyyənləşdirən aparıcı dövlətdir. Azərbaycanın irəli sürdüyü və tərəfdaş ölkələrlə qarşılıqlı maraqlara əsaslanan əməkdaşlıq modeli regional sabitliyə fundamental töhfə verir, eyni zamanda beynəlxalq iqtisadi inteqrasiyanın sərhədlərini genişləndirir. Prezident İlham Əliyevin yürütdüyü siyasət həm də regionda sülhün və təhlükəsizliyin əsas təminatçısıdır.

Yekun olaraq qeyd edə bilərik ki, dünyanı bürüyən qlobal böhranlar və gərginliklər fonunda daxildəki sabitlik, xarici siyasətdəki praqmatizm və təhlükəsiz bağlantı imkanları ölkəmizin gələcək inkişafının və yüksək statusunun təminatıdır. Ölkəmizin təklif etdiyi beynəlxalq əməkdaşlıq formatları və layihələr göstərir ki, güclü dövlət konsepsiyası təkcə hərbi və iqtisadi potensialla deyil, həm də yüksək etimad qazanmaq və dünyaya sabitlik ixrac etmək bacarığı ilə ölçülür.

# Nazir Vilayət Eyvazov Lerikdə vətəndaş qəbulu, Lənkəranda sıra baxışı keçirib









Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına və bölgələr üzrə vətəndaş qəbulu cədvəlinə uyğun olaraq, daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov iyulun 6-da və 7-də Lerik rayonunda növbəti vətəndaş qəbulu keçirib.

Nazir əvvəlcə Lerik rayonunda Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini dərin hörmət və ehtiramla yad edib.

Daha sonra Polis Şöbəsinin inzibati binasında Lerik, Lənkəran, Astara, Masallı və Yardımlı rayonlarından, eləcə də digər bölgələrdən qəbula gələn 348 vətəndaşın müxtəlif məsələlərlə bağlı müraciətləri dinlənilib.

Qəbula gələn vətəndaşların müraciətlərinin operativ və qanunvericiliyin tələblərinə uyğun həlli, habelə vətəndaş məmnunluğunun təmin olunması məqsədilə nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə müvafiq tapşırıqlar verilib.

Müraciətlərin böyük əksəriyyəti yerindəcə həll olunub, digərləri nəzarətə götürülüb.

Səfər çərçivəsində general-polkovnik Vilayət Eyvazov Lənkəran rayonunda polis və Daxili Qoşunlarda xidmət etmək arzusunda olan gənclərin sıra baxışını da keçirib.

Sıra baxışında xidmətə qəbulun şərtlərinə uyğun gələn 227 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

**DİN-in Mətbuat xidməti**

2_Layout 1 13.07.2026 16:11 Page 1



# XALQA VƏ DÖVLƏTƏ XİDMƏT TƏNTƏNƏSİ

Azərbaycan Polisinin yaranmasının 108-ci ildönümü münasibətilə daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov və nazirliyin rəhbər



heyəti Fəxri xiyabana gələrək Ulu Öndər Heydər Əliyevin abidə kompleksi önünə əklil qoyublar. Görkəmli




oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın xatirəsi ehtiramla yad edilib.

Respublikanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş mərd mübarizlərin uyuduğu Şəhidlər xiyabanı da ziyarət olunub.

Daxili İşlər Nazirliyinin Polis Akademiyasında “Polis Günü”nə və 2025-2026-cı tədris ilinin buraxılışına həsr olunmuş təntənəli mərasim keçirilib.

Tədbirdə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin, habelə respublikamızın ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə ucalmış hərbi qulluqçuların və xidməti vəzifələri yerinə yetirərkən həlak olmuş polis əməkdaşlarının xatirəsi yad olunub.

Peşə bayramı münasibətilə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin təbriklərini və ən xoş arzularını şəxsi heyətə çatdıran general-polkovnik Vilayət Eyvazov ötən 108 ildə polisin keçdiyi şərəfli və zəngin xidmət yolundan, yaratdığı ənənələrdən, xüsusən Ulu Öndər Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi dövrlərdə daxili işlər orqanlarının fəaliyyətinin təşkili, milli ruhlu vətənpərvər kadrlarla möhkəmlənməsi sahəsində görülən mühüm işlərdən danışıb.

O, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin xüsusi diqqət və qayğısı sayəsində Daxili İşlər Nazirliyində güclü və müasir maddi-texniki baza yaradıldığını, müasir dövrün çağırışlarından irəli gələn struktur dəyişiklikləri aparıldığını, şəxsi heyətin sosial müdafiəsinin gücləndirilməsi, peşə hazırlığının artırılması sahəsində sistemli tədbirlərin həyata keçirildiyini və əməliyyat-xidməti fəaliyyətin vətəndaş məmnunluğunun təmini prinsipləri üzərində qurulması ilə bağlı həyata keçirilmiş tədbirləri vurğulayıb.

Vətəndaşların ərizə və şikayətlərinin obyektiv və həssaslıqla araşdırılması, qanunçuluğun qorunması, şəxsi heyətin etik davranış qaydalarına riayət etməsi kimi mühüm vəzifələrin səmərəli icrasının vacibliyinə toxunan nazir xidməti vəzifələrin dəqiq və qüsursuz yerinə yetirilməsində dürüstlük, prinsipiallıq və məsuliyyət kimi keyfiyyətlərin böyük önəm kəsb etdiyini bildirib.

Cinayətkarlığa, onun transmilli növlərinə qarşı mübarizədə, asayişin və təhlükəsizliyin təmin olunmasında polis orqanlarının hər bir şəxsin qanuni mənafeyini, hüquq və azadlığının müdafiəsini yüksək səviyyədə təmin etdiyi qeyd olunub.

İşğaldan azad edilmiş ərazilərdə “Böyük Qayıdış”ın sürətlənməsi üçün polis orqanlarının, o cümlədən Daxili Qoşunların fəaliyyətinin mövcud vəziyyətə uyğunlaşdırıldığı, asayişin və təhlükəsizliyin etibarlı təmin edildiyi, xidmətin böyük əzm və peşəkarlıqla davam etdirildiyi vurğulanıb.

Cinayətlərin açılmasının yüksək səviyyədə saxlanılmasının, hüquqpozmaların profilaktikasının daha da yaxşılaşdırılmasının, bütövlükdə xalqa xidmət funksiyalarının daha təkmil icrası üçün əlavə tədbirlərin həyata keçirilməsinin başlıca vəzifələr olduğu şəxsi heyətin diqqətinə çatdırılıb.

Xidməti vəzifələrin icrasında daxili işlər orqanlarına hər zaman yardımçı olan, polisin peşə bayramının sevincini bölüşən vətəndaşlara, daxili işlər orqanlarının veteranlarına, dövlət qurumlarının rəhbərlərinə və əməkdaşlarına, qeyri-hökumət təşkilatlarına və media nümayəndələrinə təşəkkür ifadə olunub.

General-polkovnik V.Eyvazov təntənəli mərasimin iştirakçıları adından Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevi əmin edib ki, öz andına həmişə sadiq olan daxili işlər orqanları bundan sonra da Vətənə və xalqa şərəflə xidmət edəcək, bu yolda qüvvə və bacarığını əsirgəməyəcək.



Azərbaycan polisinin müasir dünyagörüşlü yeni nəslini Vətənə, dövlə-



tə, xalqa sevgi və xidmət ruhunda yetişdirən Polis Akademiyasının qazanılan uğurlardakı rolunu xüsusi vurğulayan daxili işlər naziri məzunları təhsili başa vurmaları münasibətilə təbrik edib, eləcə də bu təhsil müəssisəsini “baş leytenant” rütbəsi ilə bitirmiş məzunlara fərqlənmə diplomlarını təqdim edib.

Təntənəli tədbir şəxsi heyətin mətin addımlarla tribuna qarşısından keçidi ilə yekunlaşıb.

**DİN-in Mətbuat xidməti**

# DAXİLİ İŞLƏR NAZİRLİYİNDƏ 6 AYIN YEKUNLARI MÜZAKİRƏ OLUNUB

İyulun 9-da Daxili İşlər Nazirliyində 2026-cı ilin 6 ayında əməliyyat-xidməti fəaliyyətin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş Kollegiya iclası keçirilib.

İclası giriş sözü ilə açan daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov daxili işlər orqanları və Daxili Qoşunların cinayətkarlıqla mübarizə, ictimai asayişin



qorunması, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində xidməti vəzifələrini layiqincə yerinə yetirdiyini bildirib. Beynəlxalq və respublika əhəmiyyətli kütləvi tədbirlərdə, habelə işğaldan azad edilmiş ərazilərdə təhlükəsizliyin etibarlı təmin olunduğunu, qanunla müəyyən edilmiş funksiyaların digər hüquq-mühafizə orqanları ilə qarşılıqlı əlaqədə peşəkarlıqla icra edildiyini vurğulayıb. Qarşıda mühüm vəzifələrin dayandığını da diqqətə çatdıraraq onların ətraflı müzakirəsinin, eləcə də xidməti fəaliyyətin təkmilləşdirilməsi məqsədilə əlavə təşkilati tədbirlərin müəyyənləşdirilib həyata keçirilməsinin vacibliyini qeyd edib.

İclasda hesabat məruzəsi və məruzəətrafı çıxışlar dinlənilib.

Hesabat məruzəsində vurğulanıb ki, ötən 6 ayda əməliyyat-axtarış və istintaq fəaliyyətinin subyekti olan bütün dövlət qurumları üzrə 15.420 cinayət qeydə alınıb və onların 95,4 faizi daxili işlər və prokurorluq orqanları tərəfindən prosessual qaydada araşdırılan hüquqazidd əməllər olub, 87 faizini böyük ictimai təhlükə törətməyən və az ağır növləri təşkil edib.

2025-ci ilin 6 ayı ilə müqayisədə ümumi cinayətlər 8,6, ağır və xüsusilə ağır cinayətlər 6,5, mülkiyyət əleyhinə olanlar 15,3, onlardan oğurluqlar 11,5, dələduzluqlar 16,8, soyğunçuluqlar 8,8, quldurluqlar 44,2, hədə-qorxu ilə tələb etmələr 10,5, habelə xuliqanlıqlar 12,5, yetkinlik yaşına çatmayanların cinayətləri 15,3, ailə münaqişəsi zəminində törədilənlər 3,5, qrup halında baş verənlər 16,6 faiz, odlu silahın tətbiqi ilə törədilənlər 3 fakt, yol-nəqliyyat hadisələrinin sayı 7,6 faiz, qəzalarda xəsarət alanların sayı 19 faiz, həlak olanların sayı 9 faiz azalıb.

Cinayətlərin açılması 1,1 faiz, qeyri-aşkar şəraitdə törədilənlərin açılması 2,5 faiz, mülkiyyət əleyhinə olanların açılması 4,4 faiz, onlardan oğurluqların açılması 10,7 faiz, dələduzluqların açılması 1,2 faiz yaxşılaşıb, adam oğurluğu və avtonəqliyyat vasitəsinin qaçırılması cinayətlərinin açılması tam təmin edilib.

Həyata keçirilmiş istintaq hə-



rəkətləri və əməliyyat tədbirləri ilə cinayətlərin 93,9 faizi, o cümlədən prokurorluq orqanları ilə birgə keçmiş illərdən bağlı qalmış 218 və görülmüş operativ cavab tədbirləri ilə 3.013 cinayət açılıb, eləcə də 4.474 hüquqazidd əməlin qarşısı alınıb. Müxtəlif cinayətlər törətmiş 6.887 şəxs məhkəmə məsuliyyətinə verilib. İstintaqdan və təhqiqat orqanlarından yayınan 4.282, o cümlədən ağır və xüsusilə ağır cinayətlərə görə 645 təqsirləndirilən şəxs tutulub. Axtarış işinin nəticələri 3 faiz yaxşılaşaraq 82,7 faizə yüksəlib.

Mütəşəkkil cinayətkarlıqla mübarizə tədbirləri çərçivəsində 288, o cümlədən ağır və xüsusilə ağır cinayətlər törətmiş 104 kriminal qrup zərərsizləşdirilib, qanunsuz olaraq odlu silah saxlayan və daşıyan 70 nəfər cinayət məsuliyyətinə cəlb edilib. Eyni zamanda 3.088 odlu silah, 337 qumbara və 99 mindən çox patron aşkarlanıb.

Qeyri-leqal dövriyyədən ötən ilin müvafiq dövrü ilə müqayisədə 1 ton 360 kiloqram çox, yəni 4 ton 318 kiloqram narkotik vasitə çıxarılıb, qanunsuz kultivasiya edilən və yabanı halda bitən 254 tondan artıq çətənə və xaş-xaş kolu aşkarlanıb məhv edilib. Bu növ əməllərə görə 41 cinayətkar qrup zərərsizləşdirilib, 2.652 şəxs cinayət məsuliyyətinə cəlb olunub.

Vətəndaşların qəbulu və müraciətlərinə baxılması sahəsində mühüm funksiyaların icrası da davam etdirilərək 3.889 şəxsin qəbulu həyata keçirilib, qaldırılan məsələlərin əksəriyyəti öz qanuni həllini tapıb. Nazirliyə daxil olmuş müraciətlər operativ araşdırılaraq hər biri təşəbbüskarların hüquqları izah edilməklə yazılı cavablandırılıb.

Kollegiya iclasına yekun vuran nazir general-polkovnik V.Eyvazov xidməti vəzifələrin və qarşıya qoyulan tapşırıqların hesabat dövründə bütövlükdə layiqincə yerinə yetirildiyini qeyd edib, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi sahəsində əldə olunan müsbət nəticələrin inkişaf etdirilməsi üçün fəaliyyətin effektivliyinin artırılması ilə bağlı tapşırıq və tövsiyələrini verib.

Həmçinin vətəndaş məmnunluğunun təmin edilməsinin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müəyyənləşdirdiyi əsas vəzifələrdən olduğunu vurğulayaraq cinayətlərin qarşısının alınması, açılması, hüquqazidd əməllər nəticəsində vurulmuş maddi ziyanın ödətdirilməsi, müraciətlərə baxılması və vətəndaş qəbulu işinə daha böyük həssaslıqla yanaşılmasını tələb edib.

**DİN-in Mətbuat xidməti**

# QOŞUN XİDMƏTİNİN VƏ HƏRBİ İNTİZAMIN VƏZİYYƏTİNİN YEKUNLARINA GÖRƏ FƏRQLƏNƏN BÖLMƏ

Xüsusi təyinatlı dəstənin əsas vəzifələri istər silahlı cinayətkarların axtarılması, tutulması və zərərsizləşdirilməsi, istər də ictimai təhlükəsizliyin pozulması və təbii fəlakətlər zamanı qarşıya qoyulan tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsinə daim hazır olmaqdır. Bu isə hər bir xüsusi təyinatlıdan, ilk növbədə, yüksək döyüş hazırlığı, möhkəm hərbi intizam və “dəmir iradə” tə-



ləb edir. Bu mənada 16077 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin hərbi qulluqçuları xidmətdə sayıqlıq və əzmkarlıq nümayiş etdirirlər.

İlin istənilən fəslində, müxtəlif relyefə məxsus ərazilərdə adına uyğun çevik fəaliyyət göstərmək qabiliyyətinə malik olan dəstənin təlim proqramları hissənin digər bölmələrinin müvafiq tədris proqramlarından fərqlənir. Hərbi qulluqçudan kifayət qədər fiziki güc və möhkəm iradəyə malik olmağı tələb edən bu təlim proqramlarında nəzərdə tutulmuş məşğələlərə maraqla yanaşan xüsusi təyinatlılar praktiki fəaliyyət zamanı yüksək peşəkarlıq göstərərək, qarşıya qoyulan tapşırıqların öhdəsindən layiqincə gəlirlər. Qeyd edim ki, dəstə cari ilin may ayında qoşun xidməti və hərbi intizamın vəziyyətinin yekunlarına görə hərbi hissənin bölmələri arasında birinci yerə layiq görülüb.

Dəstə komandiri mayor Elvin Məmmədov bildirdi ki, şəxsi heyətin döyüş təlimi daxili işlər nazirinin müavini-daxili qoşunların komandanının müvafiq direktivinin tələblərinə əsasən təşkil edilir. Əsas diqqət atəş və fiziki hazırlıqlarla yanaşı, xüsusi-taktiki hazırlıq, hərbi topoqrafiya, həmlə-desant hazırlığı, tək əsgərin döyüş təlimi, hərbi-tibbi hazırlıq, hərbi mühəndis hazırlığı və mütəxəssislərlə ixtisas hazırlığı üzrə məşğələlərə yetirilir. Hərbi qulluqçuların mənəvi-psixoloji tərbiyəsi, dünyagörüşlərinin düzgün formalaşdırılması da əsas məqamlardandır.

Dəstə komandiri xüsusi təyinatlıların hazırlığını yüksək qiymətləndirərək, şəxsi heyətin döyüş tapşırığını yerinə yetirməyə hər zaman hazır olduğunu bildirdi: “Keçirilən məşğələlər zamanı onların hərbi bilik və bacarıqlarını artırmalarına xüsusi fikir verilir. Əsas diqqətimizi atəş və fiziki hazırlıq məşğələlərinə, həmçinin səhra şəraitində taktiki hazırlıq üzrə praktiki fəaliyyətə yönəldirik. Hərbi topoqrafiya üzrə şəxsi heyətin biliklərinin artırılması da diqqət yetirilən vacib amillərdəndir. Hər bir xüsusi təyinatlının müxtəlif miqyaslı xəritələrdən fərdi qaydada sərbəst istifadə edə bilməsinə nəzarət edilir”.

Onun sözlərinə görə, məşğələlər zamanı hər bir hərbi qulluqçunun fərdi hazırlığı, real şəraitə uyğun operativ şəkildə qərar qəbul etmək bacarığı qiymətləndirilir.

Mayor E.Məmmədov, həmçinin vurğuladı ki, şəxsi heyətin təhkim olunmuş silaha mükəmməl yiyələnməsi, döyüş və digər texnikanın bacarıqla tətbiq edilməsi, əlbəyaxa döyüş fəndlərinin öyrənilməsi, ekstremal şəraitlərdə dayanıqlılığın, fəal, qətiyyətli fəaliyyətin nümayiş etdirilməsi, eləcə də yüksək nizam-intizamın saxlanılması, sayıqlığın aşılanması, fiziki və psixoloji gərginliyə müvəffəqiyyətlə tab gətirilməsi dəstə komandirinin müavini-qərargah rəisi mayor Taleh Babayevin xüsusilə diqqət mərkəzindədir. Qarşısına qoyulan tapşırıqları müvəffəqiyyətlə icra edən mayor T.Babayev məşğələlərin çətinlik dərəcəsindən asılı olmayaraq, şəxsi heyət tərəfindən müvəffəqiyyətlə icra olunmasını təmin edir.

“Yüksək döyüş hazırlığına, eləcə də xidmətin nümunəvi təşkil olunub aparılmasına nail olmanın əsasında isə şəxsi heyətin nizam-intizamı və düzgün istiqamətə köklənmiş mənəvi-psixoloji durumu dayanır” - deyə, fikirlərini bildirən dəstə komandirinin tərbiyə işləri üzrə müavini mayor Bilal Məmmədov bu baxımdan bəzi məqamlara aydınlıq gətirdi: “Ümumilikdə götürdükdə, dəstə kiçik bir hərbi kollektivdir. Dəstənin qarşısına qoyulan tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsi isə hərbi qulluqçuların birgə fəaliyyətindən asılıdır. Şəxsi heyətin hərbi intizamının möhkəmləndirilməsi, hərbi kollektivdə dostluq və yoldaşlıq məfhumunun aşılanması, eləcə də mənəvi-psixoloji durumun düzgün məcraya yönləndirilməsi ümumi məqsədə çatmanın əsas meyarı olmaqla yanaşı, tərbiyə işinin vacib vəzifələrindəndir”.



Dəstə komandiri şəxsi heyət arasında yüksək döyüş hazırlığı və intizam nümayiş etdirən qrup komandirlərindən baş leytenant Şahin Hüseynlinin, hərbi qulluqçulardan baş çavuşlar Tural Süleymanov, Rizvan Məhərov, Hüseyn Həsənov, Mais İbrahimovun adlarını çəkdi.

**kapitan Nigar Ağayeva**

3_Layout 1 13.07.2026 16:10 Page 1



# HƏRBİ QULLUQÇULARIMIZ BƏRDƏDƏ YAŞAYAN ŞƏHİD AİLƏSİNİ ZİYARƏT EDİBLƏR

Mətbuat xidməti olaraq qarşımızda duran ən vacib vəzifələrdən biri ərazi bütövlüyümüz uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalan hərbi qulluqçularımızın ailə üzvlərinə mütəmadi olaraq baş çəkmək, şəhidlərimizin döyüş yoluna yenidən nəzər salmaqdır. Hər dəfə xidməti ezamiyyətlərdə olduğumuz zaman şəhid ailələri ilə görüşür, bir daha müqəddəs məram uğrunda həlak olan qəhrəman oğullarımızın ailə üzvlərinə dərin hörmət və ehtiramımızı çatdırırıq.

Ölkə başçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin şəhid ailələrinə daim göstərdiyi diqqət və qayğı göz önündədir. Şəhid ailələrinin sosial-məişət problemlərinin aradan qaldırılması, ehtiyaclarının qarşılanması istiqamətində respublikamızda həyata keçirilən tədbirlər təqdirəlayiqdir.

Daxili İşlər Nazirliyinin rəhbərliyi və Daxili Qoşunların komandanlığı tərəfindən şəhid ailələri ilə bağlı məsələlər daim diqqət mərkəzində saxlanılır.

Həqiqətən bu gün cəmiyyətimizdə şəhid hərbi qulluqçulara və onların ailə üzvlərinə dərin rəğbət və ehtiram nümayiş etdirilir. Onların qəhrəmanlıq nümunələri ilə zəngin olan xidməti-döyüş fəaliyyətlərinin gənclərimizə örnək kimi göstərilməsi dövrün prioritetidir, desək, heç də yanılmarıq.

Bu günlərdə 16077 saylı hərbi hissəyə ezamiyyətimiz zamanı xüsusi təyinatlı dəstənin komandirinin tərbiyə işləri üzrə müavini mayor Bilal Məmmədovun və bir qrup xüsusi təyinatlının iştirakı ilə Vətən müharibəsində qəhrəmancasına həlak olan xüsusi təyinatlı gizir Cahid Tağızadənin vaxtilə yaşadığı Bərdə rayonunun Mirzalıbəyli kəndində yerləşən evində qonaq olduq.

Bu görüşdən öncə tərəfimizdən şəhidin kənd qəbiristanlığındakı məzarı ziyarət olunub. Şəhadətə ucalmış hərbi qulluqçumuzun əziz



xatirəsi anılaraq məzarına gül dəstələri qoyulub, ruhuna dualar oxunub.

Şəhidin ata ocağına gəlişimiz zamanı bizi ilk və çox hörmətlə qarşılayan ailə başçısı Vahid Tağızadə, anası Reyhan Tağızadə oldular. İgid oğlunun silahdaşlarına doğma ata kimi qucaq açan Vahid kişi sabiq hərbçi olduğuna görə təmkinini pozmurdu. Üzü gülsə də, bu gülüşün ardında hansı nisgilin, əzabın kök saldığını sezmək olurdu. Bir ata kimi oğul itkisinin acısını iliklərinə kimi hiss etsə də, yenə də "Vətən sağ olsun!" deyib, qəhrəman hərbçinin atası olduğuna görə qürurlanırdı.

Reyhan ana oğlunun silahdaşlarını hörmətlə qarşılayaraq, gəlişimizə sevindiyini, bütün hərbçilərə öz övladı kimi yanaşdığını nəzərimizə çatdırdı. Cahidin uşaqlıq və yeniyetməlik xatirələrini bizimlə bölüşərkən qəhərdən boğularaq göz yaşlarını saxlaya bilmədi: "Mənim balam evimizin ilki, dayağımız, arxamız idi. Çox ağıllı, böyük-kiçik yeri bilən gənc olub. Orta məktəbi yaxşı oxumasına, sinif nümayəndəsi olmasına baxmayaraq, uşaqlıqdan hərbi peşəyə sevgisi olub. Çox maraqlıdır ki, 2 yaşında dili topuq vura-vura mən hərbçi olmaq istəyirəm demişdi".

Qeyd edək ki, C.Tağızadə 12 fevral 1988-ci ildə Bərdə rayonunun Mirzalıbəyli kəndində hərbçi ailəsində anadan olub. 3 oğuldan biri, ailənin ilk övladı olan Cahid valideynləri tərəfindən el-oba qədrini bilən, xeyirxah, ailəcanlı, zəhmətkeş, dürüst, ləyaqətli gənc kimi yetişdirilib. Mirzalıbəyli kəndindəki Əsman İsmayılov adına tam orta məktəbi bitirib. Yeniyetməlik yaşlarından idmana maraq göstərib, fitnes, ağırlıqqaldırma ilə məşğul olub. Hələ orta məktəbdə oxuduğu illərdə onda hərbçi peşəsinə rəğbət yaranıb. Bu rəğbəti barədə ailə üzvləri və yoldaşları ilə söhbətlərində danışıb. Hərbi xidmət haqqında mətbuatda, televiziyada verilən informasiyalara xüsusi diqqət yetirib.

2006-cı ilin iyul ayında Cahid müddətli həqiqi hərbi xidmətə çağırılıb. Daxili Qoşunların sıralarında hərbi xidmət borcunu vicdanla yerinə yetirib. 2008-ci ilin yanvar ayında ehtiyata buraxılıb. Bir neçə aydan sonra yenidən Daxili Qoşunların sıralarına qayıdıb. 2008-ci ilin iyun ayının 25-dən qoşunların 16077 saylı hərbi hissəsinə müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunub. 2012-ci ilin dekabr ayından xidmətini davam etdirmək üçün 17074 saylı hərbi hissəyə keçirilib.

Vətən müharibəsinədək hərbi xidməti dövründə gizir C.Tağızadə "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medalı ilə mükafatlandırılıb.

2020-ci ilin avqust ayında Cahid Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində təşkil olunan xüsusi təyinatlı bölmələrin taktiki təlimlərində iştirak edərək, döyüş hazırlığı baxımından öz məharəti ilə seçilib.



2020-ci il sentyabrın 27-də başlayan və 44 gün davam edən Vətən müharibəsi zamanı 17074 saylı hərbi hissədən ön cəbhəyə göndərilən gizir C.Tağızadə müharibənin ilk günündən döyüşə atılıb, erməni işğalçılarına qarşı cəsurluqla vuruşub. Onun döyüş yolu Murovdağ yüksəkliyi, Füzuli və Cəbrayıl rayonlarının ərazilərindən keçib.

Cahidlə birgə döyüşmüş silahdaşları onun vətənpərvər, iradəli və qətiyyətli olduğunu, qorxmadan düşmən postlarının üzərinə həmlələr etdiyini, sərrast atışları ilə bir sıra atəş nöqtələrini susdurduğunu, canlı qüvvə və texnikasına tutarlı zərbələr vurduğunu bildiriblər. Döyüşçüləri ruhlandıraraq, "biz elə vuruşmalıyıq ki, işğalçıların tapdağında bir qarış torpağımız qalmasın" deyib.

Deyilənə görə, Murovdağ döyüşlərindən birində Cahid düşmən mərmisinin partlayış dalğası nəticəsində kəllə-beyin travması alsa da, təxliyyə edilməsinə razılaşmayıb, göstərilən tibbi yardımdan sonra döyüşçülərin yanına qayıdıb.

Füzuli-Cəbrayıl zonasında da ağır döyüşlər gedib. Bu bölgədə də hərbi qulluqçularımızın qarşısına qoyulan döyüş tapşırıqları erməni işğalçılarının müdafiə xəttinin yarılması, onların mövqelərinin ələ keçirilməsi, canlı qüvvə, texnika və silah-sursatlarının məhv edilməsi olub. 2020-ci ilin oktyabr ayının ilk günlərində bizim qüvvələrin Füzuli və Cəbrayıl rayonlarının düşmənin nəzarətindəki ərazilərinə istiqamətlənən hücum əməliyyatları səngiməyib. Həmin döyüşlərdən birində düşmən minaatanından atılan mərminin yaxınlığında partlaması nəticəsində gizir C.Tağızadə ağır yaralanaraq şəhid olub.

Şəhid hərbi qulluqçumuz doğma kəndinin qəbiristanlığında dəfn olunub. Mirzalıbəyli kəndindən 4 nəfər Vətən müharibəsində şəhidlik zirvəsinə ucalıb.

Azərbaycan Respublikası Prezidentinin 15 və 29 dekabr 2020-ci il tarixli müvafiq sərəncamları ilə gizir C.Tağızadə ölümündən sonra "Vətən uğrunda" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib.

Mərhumun Nərmin və Nihad adlı 2 övladı yadigar qalıb. Qeyd edək ki, Nərmin və Nihad çox savadlı, ağıllı və bacarıqlı şagirdlər kimi müəllimlərinin sevimlisidirlər.

Nə qədər Azərbaycan xalqı var, Vətən uğrunda şəhadətə ucalan Cahid kimi oğullarımızın da əziz xatirələri hər zaman qəlblərdə yaşayacaq. Ərazi bütövlüyümüzün təminatçıları olan bu igid hərbçilərə, kiçikdən böyüyə, hər birimiz özümüzü borclu bilməli və onların ailə üzvlərinə, övladlarına yüksək diqqət və qayğı ilə yanaşmalıyıq. Çünki bütün şəhidlərimiz azad, firavan, bütöv Azərbaycan uğrunda şirin canlarından keçiblər. Bu amili yaşından, vəzifəsindən asılı olmayaraq hər bir azərbaycanlı unutmamalı, şəhid ailələrinin rifahı naminə hər cür köməkliyi göstərməlidir.

**kapitan Nigar Ağayeva**

# HƏRBİ QULLUQÇULARIN HEYDƏR ƏLİYEV MƏRKƏZİNƏ EKSKURSİYASI TƏŞKİL OLUNUB

Şəxsi heyətin mənəvi tərbiyəsi, maarifləndirilməsi, dünyagörüşünün, mədəni-estetik səviyyəsinin və dövlətçilik təfəkkürünün düzgün formalaşdırılması, ictimai-siyasi biliklərinin artırılması baxımından tarixi məkanlara, mədəniyyət abidələrinə, muzey və sərgi mərkəzlərinə ekskursiyaları mühüm əhəmiyyət kəsb edir. Digər hərbi hissələrimizdə olduğu kimi, 16073 saylı hərbi hissədə də belə tədbirlər davamlı olaraq təşkil edilir. Hərbi hissənin komandanlığı hərbi qulluqçuların asudə vaxtlarının səmərəli təşkilini hər zaman nəzarətdə saxlayır.



Bu məqsədlə, hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsinin post-patrul xidməti bölməsinin götürmə qrupunun komandiri baş leytenant Ülvi İbrahimovun rəhbərliyi ilə xidmətdə fərqlənən nümunəvi, intizamlı hərbi qulluqçuların Qubada yerləşən Heydər Əliyev Mərkəzinə ekskursiyası təşkil olunub.

Heydər Əliyev Mərkəzinin bələdçisi hərbi qulluqçulara mərkəz haqqında ətraflı məlumat verib. Bildirilib ki, mərkəzin fəaliyyətinin əsas istiqaməti Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin siyasi irsi, dövlətçilik fəlsəfəsi və azərbaycançılıq məfkurəsinin dərindən öyrənilməsi, geniş təbliğ olunması, gənc nəslə çatdırılmasıdır.

Burada dahi liderin uşaqlıq və gənclik illəri ilə yanaşı, zəngin fəaliyyətinin bütün dövrləri fotostendlərdə öz əksini tapır. Onun sovet hakimiyyəti illərində və ölkəmizin müstəqilliyi dövründə Qubaya səfərlərini, rayon ictimaiyyəti ilə görüşlərini əks etdirən maraqlı fotolar toplanılıb.

Bununla yanaşı, milli memarlıq elementlərindən istifadə olunmaqla müasir tikinti texnologiyalarına uyğun inşa olunan dördmərtəbəli, ümumi sahəsi 6500 kvadratmetrdən çox olan mərkəzdə muzey də fəaliyyət göstərir. Ümummilli Liderin keçdiyi həyat yolunu



və çoxşaxəli fəaliyyətini dolğun əks etdirən xatirə muzeyində onun Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri və Azərbaycan Respublikasının Prezidenti kimi 1993-2003-cü illərdə həyata keçirdiyi böyük işlər, Azərbaycanın rifahı, xoşbəxt gələcəyi naminə apardığı düşünülmüş siyasət, ölkəmizin hərtərəfli sosial-iqtisadi tərəqqisinə yol açan layihələr, ordu quruculuğu, xarici siyasət, mədəniyyət və digər sahələrin inkişafına dair maraqlı fotolar, sənədlər, o dövrə aid kitablar, qəzetlər və başqa materiallar saxlanılır.

Burada, həmçinin dahi liderin zəngin irsini gənc nəsillərə çatdırmaq üçün virtual tədris sinifləri, üç konfrans zalı, kompüter mərkəzi, kitabxana, xarici dillər mərkəzi, 3D kinozalı, ədəbiyyat dərnəyi, kulinariya məktəbi, heykəltəraşlıq, xalça və rəsm studiyaları, fotostudiya yerləşir. Rəsm studiyası xüsusilə gənc rəssamların istedadlarını nümayiş etdirmələri üçün geniş imkanlar açır. Mərkəzdə yeməkxana, mətbəx, milli rəqs studiyası da yaradılıb.

Hərbi qulluqçular mərkəzdən xoş təəssüratlarla ayrılıblar.

**kapitan Xədicə Hacızadə**

# DAXİLİ QOŞUNLARA ÇAĞIRIŞÇILARIN QƏBULU DAVAM EDİR

Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin müvafiq sərəncamına uyğun olaraq, iyul ayında Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında çağırışçıların müddətli həqiqi hərbi xidmətə qəbulu prosesi həyata keçirilir.



Sərəncamdan irəli gələn tələblərin yerinə yetirilməsi məqsədilə, daxili işlər nazirinin müavini-daxili qoşunların komandanının "Daxili Qoşunlara çağırışçıların seçilməsi, qəbulu, daşınması və sıraya daxil edilməsi ilə əlaqədar təşkilati tədbirlərin keçirilməsi haqqında" əmri ilə çağırışçıların tibbi müayinələrinin aparılması və mənəvi-psixoloji durumlarının qiymətləndirilməsi üçün seçim qrupu yaradılıb. Daxili Qoşunların Baş İdarəsinin qərargahının təşkilat və komplektləşdirmə şöbəsinin baş zabiti mayor Elvin Qasımov seçim qrupunun rəhbəri təyin edilib.

Bu sahədə görülən işlərin, verilən tapşırıqların icrası barədə məlumat verən 25031 saylı hərbi hissənin komandirinin tərbiyə işləri üzrə müavini mayor Allahverdi Nəbiyev bildirdi ki, çağırışçıların xidmətə qəbulu, yerləşdirilmələri və hərbi anda gətirilənədək müvafiq qaydada hazırlanmaları Daxili Qoşunlar komandanlığının diqqət yetirdiyi ən vacib məsələlərdəndir. Onların hərbi xidmətə tədricən uyğunlaşdırılmaları, hərbi nizamnamələrin müddəaları ilə tanış olmaları, eləcə də mənəvi-psixoloji durumlarının yüksək səviyyədə saxlanılması təsdiq edilmiş tədbirlər planına əsasən icra edilir. Bunun üçün ilk olaraq, mənəvi-psixoloji hazırlıq planları hazırlanır və hərbi hissə komandiri tərəfindən təsdiq olunur.



Qəbul məntəqəsinə daxil olan çağırışçılar hərbi-həkim komissiyasından keçməzdən əvvəl seçim qrupunun üzvləri tərəfindən onlarla söhbətlər aparılır. Söhbət zamanı çağırışçıların demoqrafik məlumatları, məşğuliyyətləri, ailə vəziyyətləri, dünyagörüşləri, Vətənə bağlılıqları, orduya münasibətləri, sosial vəziyyətləri, təhsilləri, bacarıq və işgüzar keyfiyyətləri, yaxın qohumlarının məhkumluğunun olub-olmaması ətraflı öyrənilir. Həmçinin onlara hərbi xidmətin üstünlükləri izah edilir, dövlət və dövlətçiliyə sadiqlik, Vətənə məhəbbət kimi ən müqəddəs hisslərin, döyüş ruhunun aşılanması, mənəvi-psixoloji durumun yüksəldilməsi məqsədilə Daxili Qoşunların şərəfli döyüş yolu, qəhrəmanları haqqında məlumat verilir. Bütün məlumatlar toplandıqdan sonra isə hər bir çağırışçının mənəvi-psixoloji durumu haqqında rəy hazırlanır və hərbi hissəyə təqdim olunur.

Daha sonra çağırışçılar növbə ilə həkimlər tərəfindən müxtəlif tibbi müayinələrə cəlb olunurlar, ümumi bədən baxışı və sonda profilaktik flüoroqrafik müayinə keçirilir. Yalnız praktiki sağlam hesab olunarlarsa, hərbi xidmətə qəbul edilirlər.

Bununla yanaşı, çağırışçıların əşya əmlakları, eləcə də bədən ölçülərinə uyğun geyimlərlə təmin olunmaları da daim diqqətdə saxlanılır.

Çağırışçılar qəbul komissiyasından keçdikdən sonra onlarla hərbi hissədə bölük və taqım komandirləri tərəfindən tərbiyəvi söhbətlər aparılır, hərbi xidmətə adaptasiya olunmaları üçün tərbiyə işləri üzrə bölmənin təlimatçı-psixoloqu tərəfindən müvafiq məsləhətlər verilir.

Hərbi hissədə çağırışçıların qəbulu və yerləşdirilməsi ilə bağlı lazım olan hər bir şəraitin mövcudluğu onu deməyə əsas verir ki, Daxili Qoşunların sıralarına xidmətə yeni qəbul olunmuş çağırışçıların Vətənə layiqli, intizamlı hərbi qulluqçu kimi formalaşması Daxili Qoşunların komandanlığının nəzarəti altında həyata keçirilməkdədir.

**Mətbuat xidməti**

# MİLLİ MƏTBUATIMIZIN 151 İLLİYİ




Azərbaycan xalqının dirçəlişi, maariflənməsi, özünüdərk yolunda atdığı ən əlamətdar addımlardan biri, şübhəsiz ki, "Əkinçi" qəzetinin ilk nömrəsinin nəşri ilə reallaşıb. Azərbaycan mətbuatının banisi Həsən bəy Zərdabi böyük çətinliklərdən sonra Bakıda ana dilində "Əkinçi" qəzetinin nəşr edilməsi üçün icazə alıb və ilk nömrəsi 1875-ci il iyulun 22-də çapdan çıxıb. "Əkinçi" qəzetinin nəşri bütün Qafqazda əks-səda doğurub.1875-1877-ci illər ərzində fəaliyyət göstərmiş qəzetin 56 nömrəsi işıq üzü görüb.

Qəzetin mütərəqqi ideyaları Rusiya hakim dairələrini narahat edib və iki il sonra qəzet bağlanıb. Azərbaycan mətbuatının ilk müjdəçisi "Əkinçi"dən sonra bu sahədə xeyli irəliləyişlər olub. XIX əsrin sonlarında "Ziya" (1879), "Kəşkül" (1880), "Kaspi" (1880-1890-cı illər) qəzetləri nəşrə başlayıb. XX əsrin əvvəllərində C.Məmmədquluzadə, M.Şahtaxtinski, S.Hüseyn, Ö.F.Nemanzadə, Ü.Hacıbəyov və başqaları yeni demokratik mətbuatın yaranması uğrunda mübarizə aparıblar. Bu gərgin mübarizə öz nəticəsini verib. "Şərqi-rus" (1903), "Həyat" (1905), "İrşad" (1906), "Açıq söz" (1915), "Azərbaycan" (1918) kimi demokratik ruhlu qəzetlər meydana çıxıb. 1906-cı ildə "Molla Nəsrəddin" jurnalı nəşrə başlayıb.

Azərbaycan milli mətbuatının inkişafının müasir mərhələsi isə Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlı olub. Ulu Öndər mətbuatın cəmiyyətdəki rolunu hər zaman yüksək qiymətləndirib, onu sadəcə, informasiya vasitəsi deyil, ictimai düşüncənin formalaşmasında mühüm bir platforma kimi dəyərləndirib. 1998-ci ildə Azərbaycanda senzuranın rəsmi şəkildə ləğv edilməsi isə təkcə mətbuat üçün deyil, bütövlükdə demokratik cəmiyyət quruculuğu baxımından mühüm dönüş nöqtəsi olub.

Ulu Öndər Heydər Əliyevin mətbuata və jurnalistlərə göstərdiyi diqqət və qayğı bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkəmizdə söz və mətbuat azadlığı tam şəkildə təmin olunur, çoxsaylı qəzet və jurnallar nəşr edilir, televiziya kanalları fəaliyyət göstərir.

Vətən müharibəsi zamanı Azərbaycan mətbuatı kütləvi dezinformasiya hücumlarının qarşısının alınmasında, cəmiyyətin operativ və düzgün məlumatlandırılmasında mühüm rol oynayıb.

151 il ərzində Azərbaycan cəmiyyətinin sürətli və keyfiyyətli informasiya təminatçısı olan milli mətbuatımıza missiyasını həyata keçirməsində yeni nailiyyətlər arzulayırıq.

**Mətbuat xidməti**

# HƏRBİ İNSTİTUTU YÜKSƏK NAİLİYYƏTLƏRLƏ BAŞA VURAN MƏZUNLAR







Qəzetimizin bu sayında təhsil aldığı müddətdə yüksək nəticələrə nail olduqlarına, hərbi xidmət vəzifələrini nümunəvi yerinə yetirdiklərinə, hərbi intizamın möhkəmləndirilməsində fəal iştirak etdiklərinə görə həvəsləndirmə qaydasında "baş leytenant" hərbi rütbəsinə layiq görülən hərbi qulluqçular haqqında məlumat vermək istərdik.

Baş leytenant Ömər Səfərli 2005-ci ilin yanvar ayının 2-də Füzuli rayonunun Aşağı Seyidəhmədli kəndində anadan olub. 2011-2022-ci illərdə orta təhsilini Füzuli rayonunun Zobucuq qəsəbəsində yerləşən 33 nömrəli tam orta məktəbdə alıb. 2022-ci ildə Hərbi İnstituta qəbul olunub. "İctimai təhlükəsizlik və idarəetmə" ixtisası üzrə institutu bitirərək 12318 saylı hərbi hissənin patrul bölüyünün patrul taqımının komandiri vəzifəsinə təyin edilib.

Hərbi İnstitutda təhsilini uğurla başa vurduğuna və Daxili Qoşunların zabiti olduğuna görə qürurlandığını deyən baş leytenant Səfa Siraciyev isə 2005-ci il iyulun 27-də Quba rayonunun Aşağı Atuc kəndində doğulub. 2011-2016-cı illərdə Aşağı Atuc kənd orta məktəbində təhsil alıb. 2017-2022-ci illərdə isə təhsilini şəhid Mehrab Niftəliyev adına Quba şəhəri Texniki Təmayüllü Liseydə davam etdirib. 2022-ci ildə həmin liseyi bitirib və Hərbi İnstituta daxil olub. 2026-cı ildə institutu "İctimai təhlükəsizlik və idarəetmə" ixtisası üzrə bitirib. 67987 saylı hərbi hissənin komendant bölüyünün komendant taqımının komandiri vəzifəsinə təyin olunub.

Məsuliyyətinə, intizamına görə fərqlənən hərbi qulluqçumuz bacarıqlı komandir kimi yetişməyi qarşısına məqsəd qoyub.

Digər əlaçı hərbi qulluqçu-baş leytenant Hüseyn Bilişov 2005-ci ilin avqust ayının 20-də Bakı şəhərində doğulub. 2022-ci ildə Bakı şəhəri, Xətai rayonunda yerləşən 263 nömrəli tam orta məktəbi bitirib. 2022-ci ildə Hərbi İnstituta daxil olub. 2026-cı ildə institutu "İctimai təhlükəsizlik və idarəetmə" ixtisası üzrə bitirib.

Hər bir gəncin Vətənə olan borcunu layiqincə yerinə yetirməsinin vacibliyini deyən baş leytenant H.Bilişov bu yolda məhrumiyyətlərə mətanətlə sinə gərməyin lazım olduğunu xüsusi olaraq vurğuladı. Əlavə olaraq qeyd etdi ki, Hərbi İnstitutda təhsil aldığı müddət ərzində keçirilən məşğələlər, onların bilik və bacarıqlarının artırılmasında önəmli rol oynayıb.

**kapitan Xədicə Hacızadə**

NÜMUNƏVİ XİDMƏT

# VƏZİFƏLƏRİNİN ÖHDƏSİNDƏN BACARIQLA GƏLƏN HƏRBİ QULLUQÇU




Daxili Qoşunların 16073 saylı hərbi hissəsinin nümunəvi hərbi qulluqçularından biri baş çavuş Nicat Hacıyevdir.

O, 1988-ci ilin oktyabr ayının 3-də Quba rayonunun Alpan kəndində anadan olub. 1995-2006-cı illərdə Alpan kəndində yerləşən Elşad Bayramov adına tam orta məktəbdə təhsil alıb. Orta təhsilini başa vurduqdan sonra 2006-2008-ci illərdə 67987 saylı hərbi hissədə müddətli həqiqi hərbi xidmət keçib. Hərbi xidmətini tamamladıqdan sonra bir müddət müxtəlif işlərdə çalışıb.

2009-cu ilin yanvar ayından müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi Daxili Qoşunların sıralarına qayıdıb. 2018-ci ilin sentyabr ayının 27-dək Xidməti itlərin yetişdirmə məntəqəsində xidmət edib. Hazırda isə 16073 saylı hərbi hissənin təminat bölüyünün xidməti it yetişdirmə məntəqəsinin rəisidir. Vəzifə borclarını layiqincə yerinə yetirən çalışqan, məsuliyyətli, nizam-intizamlı hərbi qulluqçu komandanlıq tərəfindən qarşıya qoyulan tapşırıqları keyfiyyətlə icra edir. Eyni zamanda, hərbi biliklərini və praktik təcrübəsini artırmağa səy göstərir.

Məntəqə rəisi kimi xidməti itlərin saxlanılmasına, qorunmasına, təliminə, baytarlıq xidmətinin təşkilinə, həmçinin tabeliyində olan şəxsi heyətin ixtisas hazırlığının artırılmasına, məntəqədəki obyektlərin saxlanılmasına və onlardan düzgün istifadə edilməsinə, yanğından mühafizə qaydalarına riayət olunmasına cavabdehlik daşıyır. O, həmçinin hərbi qulluqçuların nəzəri biliklərinin və praktiki bacarıqlarının artırılması məqsədilə müxtəlif təlim və məşğələlərin keçirilməsini təmin edir.

Qeyd edək ki, hərbi qulluqçumuz respublikamızda keçirilən bir sıra beynəlxalq əhəmiyyətli tədbirlərdə təhlükəsizliyin təmin edilməsinə cəlb olunub.

**kapitan Xədicə Hacızadə**

# MÜHAFİZƏ BÖLÜYÜNÜN SAYIQ, İNTİZAMLI ƏSGƏRİ



16076 saylı hərbi hissənin mühafizə bölüyünün intizamı, layiqli xidmətilə seçilən müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularından biri əsgər Ürşan Xəlilovdur. Bölük komandiri baş leytenant Nurlan Sadıqzadə tərəfindən müsbət xarakterizə olunan əsgər qısa zamanda digər hərbi qulluqçulara nümunə olmağı bacarıb.

Əsgər Ü.Xəlilov 2007-ci ilin sentyabr ayının 3-də Cəlilabad rayonunun Ağdaş kəndində anadan olub. Doğulub boya-başa çatdığı kənddə Cabir Əmənov adına tam orta məktəbdə 9-cu sinfədək təhsil alıb. Daha sonra Cəlilabad rayon Dövlət Peşə Təhsili Mərkəzində qaynaqçı ixtisasına yiyələnib.

2025-ci ilin oktyabr ayında müddətli həqiqi hərbi xidmətə çağırılıb. Hazırda xidmətini bölüyün atıcısı vəzifəsində layiqincə davam etdirir. O, daim öz üzərində çalışır, özünə qarşı tələbkardır. Xidmətə ciddi münasibətilə seçilir. Hərbi xidmətə həvəsi, əzmkarlığı ilə yanaşı, lazım olduqda əsgər yoldaşlarına da köməklik edir. Hərbi biliklərini daim artırmağa səy göstərir, bunun üçün əlindən gələni əsirgəmir, komandirlərinin tapşırıqlarını vaxtında və keyfiyyətlə yerinə yetirir.

Qeyd edək ki, vətənpərvərliyi ilə seçilən əsgər Ü.Xəlilovun atası Qarabağ müharibəsi veteranıdır. Əmisi oğlu Natiq Xəlilov isə torpaqlarımızın azadlığı uğrunda aparılan döyüşlərdə qəhrəmancasına vuruşaraq şəhidlik məqamına yüksəlib.

Biz də hərbi qulluqçumuza xidmətini uğurla başa vurmağı arzu edirik.

**16076 saylı hərbi hissənin ştatdankənar müxbir postu**

# İSTEHKAMÇI YARIMQRUPU TƏYİNATI ÜZRƏ TAPŞIRIQLARIN İCRASINA HAZIRDIR

16073 saylı hərbi hissənin hərbi qulluqçuları qarşıya qoyulan tapşırıqların yerinə yetirilməsində ayıq-sayıqlıq nümayiş etdirirlər. Döyüş hazırlığının qorunub saxlanılmasında xüsusi əhəmiyyət kəsb edən bölmələrdən biri də xüsusi təyinatlı dəstənin



istehkamçı yarımqrupudur.

İstehkamçı yarımqrupunun istehkamçısı çavuş Sahil Həsənov yarımqrupun xidməti fəaliyyəti barədə məlumat verərək bildirdi ki, xidmət müddətində bir çox tapşırığı yerinə yetirən yarımqrupun əsas vəzifələri təhkim olunmuş ərazidə sahibsiz qalmış şübhəli əşyaların zərərsizləşdirilməsi, partlamamış hərbi sursatların - partlayıcı maddələrin, minaların aşkar olunaraq təhlükəsiz hala gətirilməsi və ya partladılması, eləcə də dövlət əhəmiyyətli tədbirlərin keçirildiyi əraziyə daxil olan avtomobillərdə axtarış apararaq naməlum əşyaların, partlayıcı maddələrin aşkar edilməsidir.

Qeyd edək ki, çavuş S.Həsənov yarımqrupun nümunəvi, intizamlı hərbi qulluqçularından biridir. Eyni zamanda, torpaqlarımızın erməni işğalçılarından azad edilməsi uğrunda aparılan 44 günlük Vətən müharibəsində iştirak edib, Füzuli-Xocavənd istiqamətində gedən döyüşlərdə yaralanıb. "Cəbrayılın azad olunmasına görə", "Şücaətə görə", "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli və "Vətən müharibəsi iştirakçısı" medallarına layiq görülüb.

Hərbi qulluqçu onu da əlavə etdi ki, qarşıya qoyulan tapşırıqların keyfiyyətlə icra edilməsi məqsədilə hərbi hissə komandirinin təsdiq etdiyi müvafiq plana əsasən, şəxsi heyətlə mütəmadi olaraq məşğələlər keçirilir. Hər həftənin şənbə günləri ixtisas hazırlığı üzrə nəzəri və praktiki məşğələlər təşkil olunur. Bundan əlavə, yarımqrupun şəxsi heyəti ərazidə minaların axtarılması, tapılması, minaların əraziyə döşənməsi, minalı ərazidən keçidlərin açılması, avtomobillərin yoxlanılması, şübhəli bilinən bağlamalara təhlükəsizlik qaydalarına əməl edilərək yaxınlaşma, səyyar minaaxtaran cihazlarla işləmə qaydasının öyrədilməsi və başqa mövzularda məşğələlərə cəlb olunur, həmçinin ölkəmizdə keçirilən beynəlxalq əhəmiyyətli tədbirlərdə təhlükəsizliyi təmin edir. Yarımqrupun döyüş hazırlığı ayda bir dəfə hərbi hissə komandiri və xüsusi təyinatlı dəstənin komandiri tərəfindən yoxlanılır.

Çavuş S.Həsənov istehkamçıların peşə vərdişlərinin təkmilləşdirilməsinin hər zaman diqqətdə saxlanıldığını da xüsusilə vurğuladı. Bunun üçün hərbi qulluqçuların mütəmadi olaraq müxtəlif kurslara cəlb olunduqlarını, yarımqrupun şəxsi heyətinin Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin təşkil etdiyi kurslarda müvəffəqiyyətlə iştirak etdiyini söylədi.



Nümunəvi istehkamçılardan baş çavuşlar Samir Quliyev, Tahir Əliyev və çavuş Alim Ağayev, heyvan təlimçilərindən isə əsgərlər Elmin İmanov, Samir Məsimov vəzifələrinin icrasında hər zaman fərqlənirlər. Xidmətlərini uğurla davam etdirən hərbi qulluqçularımız bundan sonra da qarşıya qoyulan tapşırıqların vaxtında və keyfiyyətlə yerinə yetirilməsinə hazırdırlar.

**kapitan Xədicə Hacızadə**

# RABİTƏNİN TƏHLÜKƏSİZLİK TƏLƏBLƏRİNƏ RİAYƏT EDƏN RADİOTELEFONÇU



17074 saylı hərbi hissənin təminat bölüyünün rabitə taqımının rabitə manqasının radiotelefonçusu əsgər Tərlan Hüseynov 2007-ci ilin mart ayının 16-da Bakı şəhərində anadan olub. 2013-2024-cü illərdə Bakı şəhərində Firuz Bayramov adına 22 saylı tam orta məktəbdə təhsil alıb. 2025-ci ilin aprel ayından müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi Daxili Qoşunların 25031 saylı hərbi hissəsinə qəbul olunub. 2025-ci ilin may ayından avqust ayınadək 25032 saylı hərbi hissədə təşkil olunan rabitəçi kursunu müvəffəqiyyətlə bitirib.

Funksional vəzifələrinin icrasına məsuliyyətlə yanaşan hərbi qulluqçumuz ona verilən tapşırıqları vaxtında, tam məsuliyyətlə yerinə yetirir. Rabitənin müvafiq normativ sənədlərdə tələb edilən keyfiyyətdə, lazımi məlumatların ötürülməsinə hazır vəziyyətdə olmasını təmin edir, sənədli məlumatları ötürür, telefon rejimində danışıqlar zamanı gecikmə və pozuntular olarsa, onları dərhal aradan qaldırır. Həmçinin aparatların, radiostansiyaların, rabitə və AİS vasitələrinin təyinatı üzrə istismar parametrlərinə uyğun olaraq daimi hazırlığını təmin edir. O, məxfilik rejiminə və rabitənin təhlükəsizlik tədbirləri üzrə tələblərinə ciddi riayət edir, rabitə döyüş postunda daxili səliqə-sahmanı qoruyub saxlayır. Bundan əlavə, rabitə vasitələrinin döyüşə hər zaman hazır vəziyyətdə saxlanılmasına, texniki istismarı üzrə tədbirlərin təşkili və keçirilməsinə cavabdehlik daşıyır.

Təminat bölüyünün komandiri baş leytenant Vüsal Zülfüqarov əsgər T.Hüseynovu intizamlı, bacarıqlı, öz üzərində çalışan, keçirilən məşğələlərdə fəallıq göstərən hərbi qulluqçu kimi xarakterizə etdi. Söylədi ki, o, davranışları, qarşıya qoyulan tapşırıqları dəqiqliklə yerinə yetirməsi ilə yoldaşlarına nümunədir.

**kapitan Nigar Ağayeva**

TƏSİSÇİ:
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Şahin Cəfərzadə

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, R.Hüseynov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 590-65-26

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000